AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT

Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ

Şəhla Xəlili
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu
https://doi.org/10.30546/978-9952.2025.1142

**Giriş.** Əlyazma irsi bəşəriyyətin minilliklər boyunca topladığı bilik və mədəni dəyərlərin qorunub saxlandığı və nəsildən-nəslə ötürüldüyü ən mühüm qaynaqlardan biridir. Yazının meydana gəlməsi ilə başlayan bu irs insan düşüncəsi və təfəkkür tarixinin canlı şahidi olmaqla yanaşı, elm, ədəbiyyat, fəlsəfə, din, hüquq, sənət və digər sahələrdəki inkişaf mərhələlərinin izlərini özündə əks etdirir. Tarixi dövrlərdə formalaşmış əlyazmalar cəmiyyətlərin intellektual potensialını, dil və üslub xüsusiyyətlərini, eyni zamanda sosial-mədəni münasibətlər sistemini əks etdirən mühüm mənbələrdir.

Əlyazma mədəniyyəti həm Şərq, həm də Qərb sivilizasiyalarında fərqli formalarda inkişaf etsə də, hər zaman yüksək qiymətləndirilmişdir. Xüsusilə Yaxın Şərq, Orta Asiya, Anadolu və Qafqaz bölgələrində bu mədəniyyət zəngin və çoxşaxəli bir şəkildə təşəkkül tapmışdır. Əlyazmaların estetik dəyəri - xəttatlıq sənəti, miniatür, təzhib və cildçilik kimi incəliklər onları sadəcə informasiya daşıyıcısı deyil, həm də yüksək sənətkarlıq nümunəsi kimi qiymətləndirməyə əsas verir.

Əlyazma irsinin öyrənilməsi çoxistiqamətli elmi yanaşma tələb edir. Bu irs yalnız mətnin məzmunu ilə məhdudlaşmır, həm də kodikoloji, paleoqrafik, filoloji, tarixi və mədəni aspektlərdən tədqiq olunur. Həmin istiqamətlər üzrə aparılan tədqiqatlar bir tərəfdən keçmişin elmi və ədəbi mirasını gün üzünə çıxarır, digər tərəfdən isə müasir humanitar elmlərin inkişafına əhəmiyyətli töhfələr verir.

Müasir dövrdə əlyazma irsinin qorunması, bərpası və rəqəmsallaşdırılması prioritet sahələrdən birinə çevrilmişdir. Bu istiqamətdə kitabxanalar, arxivlər, muzeylər və elmi-tədqiqat institutları mühüm rol oynayır. Əlyazmaların müasir elmi tələblərə uyğun şəkildə tədqiqi və nəşri onların gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Əlyazmaların hüquqi statusu və mədəni irsdə yeri.** Əlyazmalar Azərbaycan Respublikasının qanunvericiliyində həm mədəni sərvət, həm də milli mədəni irs nümunəsi kimi hüquqi statusa malikdir. “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun VII fəslində - “Mədəni sərvətlər və Azərbaycan Respublikasının mədəni irsi” başlığı altında əlyazmaların hüquqi statusu konkret müddəalarla müəyyən edilmişdir.

Qanunun 30-cu maddəsində mədəni sərvətlər təsnif edilir. Həmin maddənin 30.2.3-cü bəndinə əsasən, əlyazmalar, xüsusi əhəmiyyətə malik kitab və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və sənədlər, not yazıları, məktublar, elmi-tarixi yadigarlar və nadir nəşrlər mədəni sərvət kateqoriyasına daxildir. Bu, əlyazmaların yalnız kitabxana və arxiv fondlarında saxlanılan materiallar deyil, eyni zamanda dövlət tərəfindən qorunan, xüsusi tarixi və elmi dəyərə malik mədəni sərvətlər kimi tanındığını göstərir.

Qanunun 32-ci maddəsi mədəni irs nümunələrinə həsr olunmuşdur. Maddə 32.1-ə əsasən, milli

mədəni irsə aid edilən obyektlər sırasına muzey, incəsənət, audiovizual (o cümlədən kino), teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları daxildir. Bu müddəa əlyazmaların xalqın kollektiv yaddaşı, elmi və bədii yaradıcılığının daşıyıcısı kimi mədəni irs kateqoriyasına daxil edildiyini hüquqi baxımdan əsaslandırır.

Qanunun 32.2-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir. Bu müddəaya uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası" sənədinin 1.1 və 1.2-ci bəndlərində əlyazmaların maddi (daşınar) mədəni irs nümunəsi olduğu xüsusi olaraq vurğulanır.

Beləliklə, Azərbaycan qanunvericiliyinə əsasən, əlyazmalar həm mədəni sərvət, həm də milli mədəni irsin ayrılmaz hissəsidir. Onların hüquqi statusu onların qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi istiqamətində dövlətin məsuliyyətini müəyyən edir. Əlyazmalar yalnız keçmişin elmi və bədii yaddaşı deyil, həm də milli kimliyin mühüm daşıyıcısı kimi qiymətləndirilir.

**Əlyazmalara dair konvensiyalar, proqramlar və standartlar.** Əlyazmaların beynəlxalq səviyyədə qorunması və istifadəsi bir sıra mühüm konvensiyalar, proqramlar və normativ sənədlərlə tənzimlənir. Bu sənədlərdə əlyazmalar həm mədəni irs, həm əqli mülkiyyət, həm də tarixi-arxiv sənədi kimi qəbul edilir və onların hüquqi statusu müəyyənləşdirilir. Əlyazmalar həm müharibə dövrlərində, həm də sülh şəraitində xüsusi mühafizə obyektləri kimi tanınır və bu məqsədlə müxtəlif beynəlxalq təşkilatlar tərəfindən əhəmiyyətli sənədlər qəbul olunmuşdur.

Əlyazmalarla bağlı ilk əhəmiyyətli beynəlxalq sənədlərdən biri 1954-cü ildə qəbul olunmuş UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Haaqa Konvensiyasıdır. Konvensiyada kitablar, əlyazmalar, arxivlər və muzey kolleksiyaları mədəni mülkiyyət kimi tanınır və onların münaqişə zamanı qorunması üzv dövlətlərin beynəlxalq öhdəliyi kimi təsbit olunur.

Əlyazmaların qeyri-qanuni dövriyyəsinin qarşısını almağa yönəlmiş digər mühüm sənəd 1970-ci il UNESCO Konvensiyasıdır. Bu sənəd "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və mülkiyyət transferinin qarşısının alınması haqqında" Konvensiya adı ilə tanınır və əlyazmalar da daxil olmaqla nadir və tarixi əhəmiyyətli obyektlərin qeyri-qanuni yerdəyişməsinə qarşı dövlətlərin birgə fəaliyyətini təmin edir.

2003-cü il tarixli "Qeyri-maddi mədəni irsin qorunması haqqında" UNESCO Konvensiyasında əlyazmalar qeyri-maddi mədəniyyətin yazılı daşıyıcı vasitəsi kimi nəzərdən keçirilir. Xüsusilə şifahi ənənələr, dini biliklər, ədəbiyyat və folklor kimi irs elementləri yazılı şəkildə əlyazmalar vasitəsilə nəsildən-nəslə ötürülür və beləliklə yaddaş funksiyasını yerinə yetirir.

UNESCO-nun 1992-ci ildən həyata keçirdiyi "Dünya Yaddaşı" (Memory of the World) Proqramı əlyazmaların beynəlxalq səviyyədə tanınması və qorunması baxımından mühüm təşəbbüslərdən biridir. Proqram nadir əlyazmaların və arxiv sənədlərinin rəqəmsallaşdırılması, qeydiyyata alınması, ictimai istifadəyə təqdim olunması və uzunmüddətli saxlanmasını təşviq edir. Azərbaycan da bu proqramda iştirak etmiş, Nizami Gəncəvinin əlyazmaları və "Kitabi-Dədə Qorqud" nüsxələri bu çərçivədə beynəlxalq irs kimi təqdim olunmuşdur.

Əlyazmaların qorunması eyni zamanda müəllif hüquqları çərçivəsində də tənzimlənir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO) və Bern Konvensiyasının müddəalarına əsasən, müəllif tərəfindən yaradılmış əlyazmalar müəllif hüququ obyektidir. Əgər müəllif hüquqları qüvvədədirsə, əlyazmanın rəqəmsallaşdırılması, nəşri və yayımı yalnız hüquq sahibinin və ya onun varisinin razılığı ilə mümkündür. Müəllifin ölümündən sonra da bu hüquqlar müəyyən müddət ərzində (adətən 50–70 il) qüvvədə qalır.

Beynəlxalq Arxiv Şurası (International Council on Archives, ICA) da əlyazmaların idarə olunması və qorunması üçün normativ çərçivələr təqdim edir. Bu təşkilat tərəfindən hazırlanmış ISAD(G) (Arxiv sənədlərinin təsviri üçün ümumi standart) və ISDF (Arxiv funksiyalarına dair standart) sənədləri əlyazmaların elmi qeydiyyatı, təsviri və saxlanması üçün beynəlxalq normaları müəyyənləşdirir.

Bütün bu sənədlər göstərir ki, əlyazmalar beynəlxalq hüquqda əsasən üç əsas statusla tanınır: mədəni irs nümunəsi (UNESCO sənədləri və proqramları), əqli mülkiyyət obyekti (WIPO və Bern Konvensiyası), və tarixi-arxiv sənədi (ICA standartları). Bu statuslar çərçivəsində əlyazmaların qorunması, istifadəsi, rəqəmsallaşdırılması və gələcək nəsillərə ötürülməsi dövlətlərin və beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir.

**UNESCO-nun “Dünya Yaddaşı” Proqramına daxil edilən əlyazmalar.** Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda qorunan 5 unikal əlyazma UNESCO-nun “Dünya Yaddaşı” Proqramı Reyestrinə daxil edilmişdir: İbn Sinanın “Əl-Qanun fit-Tibb” əsərinin II cildi, Rüstəm Curcaninin “Zəxireyi-Nizamşahi” əsəri, Əbu Əl-Qasım Əl-Zəhrəvinin “Əl-məqalətus-səlasin” əsəri, Məhəmməd Füzulinin anadilli “Divan”ı, Xurşidbanu Natəvanın “Gül dəftəri” albomu (manuscript.az).

1. Şərqin böyük alimi Əbu Əli İbn Sinanın “Əl-Qanun fit-Tibb” (“Tibb qanunları”) əsərinin II cildinin əlyazması qədimliyi, mükəmməlliyi ilə diqqəti cəlb edir. Əsər hicri 537 - miladi 1143-cü ildə müəllifin ölümündən 106 il sonra köçürülmüşdür. Bu mənada, əlyazmanın bu nüsxəsi qədimiliyi etibarilə ən qiymətli nüsxələrindən biri hesab edilir. İslam Şərqinin elm tarixinin qədimliyini sübut edən bu əlyazma 2005-ci ildə UNESCO-nun təsis etdiyi “Dünya Yaddaşı” Proqramının siyahısına daxil edilmişdir. “Tibb qanunları” Orta əsrlərdə həm Qərb, həm də Şərqdə tibb sahəsində yazılmış ən mükəmməl, tayı-bərabərı olmayan ensiklopedik əsər sayılırdı. XII əsrdə Kremonalı Gerard (1140-1187) tərəfindən ərəb dilindən latın dilinə çevirəndən bu kitab yüzilliklər boyu Avropa Universitetlərində tibb üzrə ən mükəmməl dərs vəsaiti sayılmışdır. Kitab o qədər böyük şohrət qazanmışdı kı, dahi rəssam və heykəltəraş Mikelancelo onun haqqında bunları demişdi: “İbn Sinanın ardınca gedib yanılmaq, başqalarının ardınca gedib uğur qazanmaqdan daha yaxşıdır”. 190 vərəqdən ibarət kitabın ölçüsü 24x15 sm., mətninin ölçüsü isə 18x11 sm.-dir. Əlyazmanın hər səhifəsində 18-20 sətir vardır. Nüsxə qara mürəkkəblə, aydın, narın nəsx xətti ilə köçürülmüş, fəsil adları, müalicəvi bitki adları qırmızı murəkkəblə yazılmışdır. İbn Sinanın bu əsərinin keçən əsrin 80-ci illərində rus və özbək dillərində Daşkənddə nəşri zamanı Özbəkistan alimləri ikinci kitabın elmi-tənqidi mətnini tərtib etmək üçün Bakı əlyazmasından əsas nüsxə kimi istifadə ediblər.

2. XII əsr alimi Rüstəm Cürcaninin “Zəxireyi-Nizamşahi” əsəri tibbə, farmakologiyaya aiddir. XIII əsrdə köçürüldüyü ehtimal olunur. Əlyazma 487 vərəqdən ibarətdir. Gözəl, narın nəstəliq xətti ilə, qara mürəkkəblə köçürülüb. Əlyazmanın 1-ci səhifəsi qızıl suyu və naxışlarla bəzədilmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan bu əlyazma da 2005-ci ildə UNESCO -nun “Dünya Yaddaşı” Proqramının reyestrinə daxil edilmişdir. Rüstəm

Cürcaninin "Zəxireyi-Nizamşahi" əsərinin əlyazma nüsxəsi AMEA-nın Əlyazmalar İnstitutundan başqa dünyanın heç bir yerində olmadığı üçün unikaldır. Əlyazmanın bütün mətni qızıl suyu ilə cəkilmiş xətlərlə çərçivəyə alınmışdır.

3. X-XI əsrlərdə İspaniyada-Kordova xilafətində yaşamış böyük ərəb alimi Əbülqasim Zəhravinin tibbə dair "Əl-məqalətus-səlasin" (Cərrahiyyə və cərrahi alətlər haqqında) tibbə dair 30 cildlik əsərinin cərrahiyəyə aid XXX cildi bu ensiklopedik əsərin ən dəyərli və maraqlı hissəsidir. Kitabda 200-ə qədər cərrahiyyə alətinin şəkli verilmiş, onlardan istifadə qaydaları izah edilmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan bu əlyazma 2005-ci ildə UNESCO-nun "Dünya Yaddaşı" Proqramının reyestrinə daxil edilmişdir. Bu qərarı təsdiqləyən Sertifikat Əlyazmalar İnstitutuna UNESCO -nun baş katibi Koişiro Matsuura tərəfindən təqdim edilmişdir. "Dünya Yaddaşı" Proqramının məqsədi ayrıca xalqlar və olkələr üçün deyil, bütün bəşəriyyət üçün vacib və əvəzolunmaz olan yazılı abidələri aşkar etmək və qorumaqdır. 156 vərəqdən ibarət olan bu əsərin üzü nəsx xətti ilə, qara tuşla XII əsrdə köçürülüb.

4. Məhəmməd Füzulinin anadilli "Divan"ı. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Füzuli "Divan"ının çoxsaylı nüsxələri qorunub saxlanılır. Onların içərisində M-236/4062 şifrli nüsxə bədii-estetik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Füzulinin anadilli "Divan"ının bu əlyazma nüsxəsi Füzulinin türkdilli divanının məlum əlyazma nüsxələri içində ən qədimidir. Bu səbəbdən də 2017-ci ildə UNESCO-nun "Dünya Yaddaşı" Proqramının reyestrinə daxil edilmişdir (UNESCO, 2023). Əlyazmanın katibi Mahmud bin Davud əl-Ulanyavidir. O, bu əlyazmanı hicri tarixi ilə 977-ci ildə - miladi 1569-cu ildə köçürməyə başlamış və hicri 980-ci ildə – miladi 1572-ci ildə tamamlamışdır. Mətn qara mürəkkəblə XVI əsrə aid Şərq kağızına köçürülüb, qızılı xətlərlə çərçivələnib, başlıqlar qırmızı mürəkkəblə yazılıb. "Divan"a Füzuliyə məxsus 295 qəzəl, 41 qitə, 2 müsəddəs, 3 müxəmməs, 2 təxmis, 3 mürəbbe, 75 rübai daxildir. Buraya şairin "Leyli və Məcnun" poemasına daxil olan qəzəllərdən bir çoxu da əlavə edilmişdir.

5. Xurşidbanu Natəvanın (1832-1897) "Gül dəftəri" albomu. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan bu əlyazma 2023-cü ildə UNESCO-nun "Dünya Yaddaşı" Proqramının reyesterinə daxil edilmişdir. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, Azərbaycanın ictimai həyatında və mədəni inkişafında mühüm xidmətlər göstərmiş, Qarabağ xanlığının son varisi olan Xurşidbanu Natəvanın (1832-1897) "Gül dəftəri" kimi tanınan rəsmli şeir albomu şeirlərinin, avtoqrafının və əlilə çəkdiyi rəsmlərin dövrümüzə qədər mühafizə olunan yeganə toplusudur. 227 səhifə həcmində olan bu albom 1886-ci ildə tərtib edilmişdir. Əlyazmanın cildində Xurşidbanu Natəvanın əl işindən ibarət tirmə üzərində rəngli sapla toxumalar var. Cildin bir üzündə nərgiz, qızılgül və miladi tarixlə "1886-cı il", digərində küknar, qovaq, sam ağacı və hicri tarixilə "1304-cü il" toxunmuşdur. Albomun 214-cü səhifəyə qədər olan hissəsində Natəvan nazik, sadə karandaşla müxtəlif peyzaj, miniatür və etüdlər çəkmişdir. Rəsmlər Şərq ornamentləri ilə bəzədilmişdir. Mənzərələrdən Tiflisdə çəkilmiş "Kür qırağı", "Metex qalası", "Narınqala", "Müctəhid bağı", "Şeyx Sənan dağı" və Qarabağ peyzajları realist rəsm nümunələri təsiri bağışlayır. Müəllif çəkdiyi "Gül", "Bülbül", "Pərvanə", "Bənövşə", "Qərənfil" şəkillərinin qarşısında onlara müvafiq şeirlər də yazmışdır. Xurşidbanu Natəvanın tərtib etdiyi bu alboma 13 qəzəli daxil edilmişdir. Bundan başqa topluda şairənin oğlu Mehdiqulu xan Vəfa və qızı Xanbikənin mənzum şeir parçaları da yer alıb.

**Əlyazma kitabının yaranma prosesi.** Yazı insan mədəniyyətinin ayrılmaz hissəsi olub, ictimai kommunikasiya, bilik və məlumat mübadiləsinin təşəkkül tapmasında əhəmiyyətli rol oynamışdır. İnsanlar fikir və duyğularını ifadə etmək məqsədilə ilk olaraq şəkillər, daha sonra işarələr və nəhayət, səsləri ifadə edən hərflərdən ibarət yazı sistemləri yaratmışlar. Yazının mey-

dana gəlməsi insan sivilizasiyasının tarixi nailiyyətlərindən biri hesab olunur. Yazının inkişaf mərhələləri dörd ana mərhələ ətrafında təsnif olunur: piktoqrafiya, ideoqrafiya, loqoqrafiya, hərfi əlifba.

Piktoqrafiya: Sadə rəsmlər vasitəsilə hadisələr və əşyaların təsviri. Azərbaycanda Qobustan və Gəmiqaya qayaüstü rəsmləri bu tip yazıya aiddir.

İdeoqrafiya: Şəkillər sadəcə obyektləri deyil, eyni zamanda onların mənasını da ifadə edir (məs., günəş təsviri istilik, işıq, enerji kimi anlamlar da verir).

Loqoqrafiya: Yazı səsləri və fonetik anlayışları ifadə etməyə başlayır.

Hərfi əlifba: Fonetik yazının tam formalaşdığı son mərhələdir. Bu yazı sistemini ilk olaraq Finikiyalılar yaratmışdır.

Yazının materiallaşması təbiət və texnologiya imkanlarından asılı olaraq inkişaf etmişdir. İlk dövrlərdə daş üzərində cızılan yazılardan sonra gil lövhələr istifadə olunmuşdur. Bu material yumşaq olduğu üçün üzərinə asanlıqla yazı yazılır və sonra qurudularaq saxlanılırdı. Azərbaycanda da gil lövhələr geniş istifadə olunmuş, Cənubi Azərbaycanda tapılan mixi yazılı gil nüsxələr bu faktı təsdiqləyir. Gil lövhələrin daşınmasının çətinliyi və köçürmə imkanının məhdud olması yazı materialı kimi papirusun istifadəsini aktuallaşdırmışdır. E. ə. III minillikdən etibarən Misirdə istifadə olunan papirus Nil çayı sahilində bitən bitkidən hazırlanırdı və uzun müddət yazı mədəniyyətinin beşiyi olmuşdur (Adilov, 2009: 49).

Papirusla yanaşı, yazı materialı kimi perqament (dəridən hazırlanan material) istifadə olunmuş, bu material daha cox yeni doğulmuş heyvan dərisi əsasında hazırlanırdı. Roma dövrlərində istifadə olunsa da, IV-VI əsrlərdə Misirdə papirusu tədricən əvəz etmişdir. Azərbaycanda da perqament əlyazma materialı kimi istifadə olunmuş və bu nüsxələrdən biri AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır. Orta əsrlərdə Azərbaycanda "aşılanmış dəri həm də nadir yazı ləvazimatı kimi də işlədilirdi" (Adilov, 2009: 50).

Kağız insan sivilizasiyasının texniki inkişafının ən mühüm nailiyyətlərindən biridir. Kağız mədəniyyətinin tarixi inkişafının bugünkü təhlili göstərir ki, dünya getdikcə papirus və perqament kimi yazı materiallarından uzaqlaşaraq kağızdan istifadəyə üstünlük vermişdir. X əsrdə papirusun istehsalı tamamilə dayandırılmış, XV əsrdən isə kağız perqamenti sıxışdırmağa başlamışdır. Lakin dünyanın bəzi regionlarında kağız sənayesinin yüksək inkişaf etdiyi XIX əsrin birinci yarısına qədər perqamentdən məhdud dairədə istifadə olunmağa davam olunmuşdur.

Kağızın yaranma tarixi dəqiq məlum deyil, ancaq eramızın II əsrinin əvvəllərində Çində meydana çıxdığı söylənilir. Buradan isə ərazicə yaxın olan Orta Asiyaya yayılmışdır. Orta Asiyada ilk vaxtlar kağız əsasən Səmərqənddə hazırlanmışdır. VII əsrdə Orta Asiyaya gələn ərəblərə burada kağızdan istifadə olunması məlum olur. 751-ci ildə ərəblər kağızın hazırlanma üsulunu öz torpaqlarına - Suriyaya, Misirə apararaq istehsal etməyə başlayırlar. Kağızın Çində yaranması ilə bağlı müxtəlif fikirlər dolaşsa da, onun ilk dəfə istehsalının rəsmiləşdirilməsi Tsay Lunun adı ilə bağlı olmuş və bu tarixi hadisə eramızın 105-ci ilində Cin imperatoru sarayında qeydə alınmışdır (Məmmədbağıroğlu, 2018: 17). XIII əsrdən etibarən Avropada kağız istehsalının sirləri öyrənilmiş, yazı mədəniyyəti üçün kağızın daha münasib və səmərəli olduğu qənaətinə gəlinmiş və nəticədə kağız fabrikləri yaradılmışdır.

XIV-XV əsrlərdə Azərbaycanda və İranda da kağız istehsalına maraq artmış, bu sahədə ilk manufakturalar meydana gəlmişdir. Xüsusilə XVI–XVII əsrlərdə Təbrizdə kitabçılığın inkişafı,

mədrəsələrin sayının çoxalması və dini ədəbiyyatın geniş yayılması nəticəsində kağıza olan tələbat əhəmiyyətli dərəcədə artmışdır.

Şərq əlyazmalarının əksəriyyəti Orta Asiya istehsalı olan kağızda yazılmışdır. Avropa mənşəli kağızda yazılmış Orta Asiya və Şərqi Türküstan əlyazmalarının sayı olduqca azdır və əsasən XIX əsr və XX əsrin əvvəllərinə aiddir. Bu fakt göstərir ki, XIX əsrdən başlayaraq Avropa və Rusiya kağız istehsalı Şərq kağız sənayesini tədricən üstələmiş və onu beynəlxalq ticarət dövriyyəsindən sıxışdırmışdır.

Azərbaycanda Qərb kağızından istifadə olunmasının da qədim tarixi vardır. Orta əsrlərdə yazılmış əlyazmalarda istifadə olunan kağızın hazırlanması üsulları, inkişaf mərhələləri və keyfiyyət göstəriciləri həmişə tədqiqatçıların maraq dairəsində olmuşdur. Əlyazma kitablarında istifadə olunan kağız iki əsas qrupa bölünür: filiqranlı və filiqransız. Filiqranı olmayan kağızlar əsasən Şərqdə, filiqranlı kağızlar isə Avropada istehsal olunurdu (Məmmədbağıroğlu, 2018: 16). Filiqran, yəni su nişanı, kağızın istehsalçısını və mənbəyini tanımaq üçün istifadə edilirdi. Orta əsrlərdə Avropada kağız istehsal edən müəssisələrin artması ilə birlikdə, kağızda xüsusi nişanlar yerləşdirilməyə başlanmışdır.

Maraqlıdır ki, Qurani-Kərim nüsxələri heç vaxt Avropa kağızlarında yazılmırdı, çünki bəzi filiqranlarda xaç simvolu olurdu və bu, İslam dininə zidd hesab edilirdi.

Azərbaycan əlyazma kitabı tarixi baxımından zəngin ənənəyə malikdir. Orta əsrlərdə Azərbaycan əlyazma kitablarının sayı milyonlara çatmışdır. Təkcə Nəsirəddin Tusinin təsis etdiyi Marağa Elmlər Akademiyasında müxtəlif ölkələrdən toplanmış alimlərin fəaliyyəti nəticəsində 400 minə yaxın əlyazma kitabının mövcud olduğu qeyd edilir. Bu fakt göstərir ki, artıq XIII əsrdə Azərbaycanın cənub bölgəsində - xüsusilə Təbriz, Marağa və Ərdəbil kimi şəhərlərdə əlyazma kitabı hazırlamaq sahəsində böyük təcrübə formalaşmış, bu sahədə ixtisaslaşmış sənətkarlar və kitabçılıq müəssisələri fəaliyyət göstərmişdir (Məmmədbağıroğlu, 2018: 9).

Əlyazma kitablarının hazırlanmasında müxtəlif sənət sahibləri - xəttatlar, mücəllidlər (cildçilər), müzəhhiblər (təzhib ustaları) və digər sənətkarlar iştirak edirdi. Gözəl və nəfis tərtibatlı əlyazmaların hazırlanması üçün həm maddi vəsait, həm də xüsusi şərait tələb olunurdu. Buna görə də bir çox sənətkarlar hökmdar saraylarında və ya himayədarlıq altında fəaliyyət göstərirdilər.

Əlyazma kitablarının meydana gəlməsində əsas rol oynayan xəttat və katiblər ərəb qrafikası əsasında müxtəlif estetik xətt növlərindən istifadə edərək yüksək sənət dəyəri olan nümunələr yaratmışlar. Bu sahədə ən mühüm tələblərdən biri budur ki, yüksək bədii tərtibata malik əlyazma ilk səhifədən son səhifəyədək eyni xətt üslubu ilə, sabit ritm və dəqiqliklə yazılmalıdır.

Şərq yazı mədəniyyətində şrift sistemlərinə xüsusi əhəmiyyət verilmiş, hər bir mövzuya uyğun konkret xətt növü seçilmişdir. Məsələn, XIII əsrə qədər kufi xətti Qurani-Kərimin köçürülməsi üçün əsas və rəsmi yazı növü olmuşdur. Sonralar bu funksiyanı nəsx və süls xətti əvəz etmişdir. Ümumilikdə, İslam dünyasında tanınan ilk xətt növü kufi olmuş və bu xətt əsasən daş kitabələrdə geniş istifadə edilmişdir.

Orta əsrlərdə nəsx xəttindən ilk növbədə Qurani-Kərimin köçürülməsi üçün istifadə olunmuşdur. Bu amil nəsx xəttinin İslam dünyasının bütün bölgələrində böyük nüfuz qazanmasına və geniş yayılmasına səbəb olmuşdur. Hərçənd nəsx xətti xəttatlara estetik imkanlar və yaradıcılıq üçün geniş üfüqlər açmışdır, lakin irihəcmli mətnlərin sürətlə köçürülməsi prosesində müəyyən

çətinliklər yaratmışdır. Məhz bu sürətli yazı ehtiyacı nəsx xətti ilə çalışan ustad xəttatları daha səmərəli və praktik yazı üsulu axtarmağa təşviq etmiş, nəticədə nəstəliq xətti tədricən formalaşmağa başlamışdır.

XIII əsrin ikinci yarısı isə süls xəttinin inkişafı və bədii baxımdan yetkinləşməsi baxımından həlledici dövrlərdən biri hesab olunur. Bu yazı növünün təşəkkül və inkişafında Azərbaycan türklərinin rolu xüsusilə əhəmiyyətli olmuşdur.

Ümumiyyətlə, Azərbaycan kitabə nümunələrində çiçəkli və həndəsi kufi, süls, nəsx və nəstəliq xətt növlərinə rast gəlinir. Əlyazma kitablarında isə daha geniş çeşidli xətt növləri - kufi, nəsx, təliq, nəstəliq, şikəstə, süls, divani və rüqə xətləri istifadə olunmuşdur. Bu faktlar orta əsrlər boyunca qeyd olunan xətt növlərinin Azərbaycan ərazisində tanındığını və tətbiq olunduğunu bir daha təsdiq edir.

**Əlyazma kitabının hazırlanmasında iştirak edən materiallar.** Əlyazma kitabının hazırlanması prosesi yalnız mətnin yazılması ilə məhdudlaşmır, həm də yüksək keyfiyyətli materialların seçimi və işlənməsi ilə müşayiət olunurdu. Bu prosesdə müxtəlif materiallardan - kağız, mürəkkəb, qələm və cild üçün istifadə olunan dəri əsas rol oynayırdı.

Cild. Əlyazma kitablarının cildlənməsi onun qorunması və estetik baxımdan tamamlanması üçün mühüm mərhələ idi. Cildin hazırlanmasında əsasən keçi dərisindən istifadə olunurdu. Dəri əvvəlcə aşılanır, sonra xüsusi bıçaqla istənilən qalınlıq və ölçüyə qədər nazildilirdi. Bu mərhələdən sonra dəri müxtəlif təbii boyalarla rənglənir və mürəqqa kağızın üzərinə yapışdırılırdı. Mürəqqa kağız isə əvvəlcədən hazırlanmış və üzərinə dəri yapışdırılmağa hazır vəziyyətə gətirilmiş qalın və möhkəm kağız idi.

Kağız. Əlyazma kitablarında istifadə olunan xam kağız yazıya hazır vəziyyətə gətirilmədən öncə xüsusi maddə ilə ahərlənirdi. Ahər - kağızın üzərinə çəkilən qoruyucu və hamarlaşdırıcı təbəqədir. Ənənəvi olaraq yumurta ahəri (yumurta ağı ilə) və nişasta ahəri kimi iki əsas növ istifadə olunurdu. Ahərlənmiş kağız quruduqdan sonra möhrə adlanan hamar alətlə cilalanırdı ki, bu da yazının daha asan yazılmasına, mürəkkəbin yayılmamasına və kağızın uzunömürlü olmasına şərait yaradırdı.

Mürəkkəb. Əlyazma kitablarında istifadə olunan mürəkkəb yazının əsas vasitələrindən biri idi. Mürəkkəbin hazırlanmasında müxtəlif təbii komponentlərdən istifadə edilirdi. Adətən yanmış kətan, qoz qabığı və ya kül, bəzən isə zəfəran suyu əsas maddələr kimi istifadə olunurdu (Qasımova, 2022). Ən keyfiyyətli qara mürəkkəb isə çıraq hisindən hazırlanırdı. Bu üsulda yanan çıraqların hisi toplanaraq, müəyyən nisbətdə digər maddələrlə qarışdırılır və yüksək keyfiyyətli qara və ya digər rəngli mürəkkəblər əldə edilirdi.

Qələm. Əlyazmanın yazılması üçün istifadə olunan qələmlər əsasən qamış, qarğı və ya taxta materiallardan hazırlanırdı. Xəttatın ustalığı ilə yanaşı, istifadə etdiyi qələmin ucu da yazının gözəlliyi və oxunaqlılığı baxımından mühüm əhəmiyyət daşıyırdı. Qələmin ucu xüsusi bıçaqla kəsilərək müxtəlif xətt növlərinə uyğunlaşdırılırdı.

**Əlyazma kitabının bədii tərtibatı.** Təzhib əlyazma kitablarının bədii tərtibatında mühüm yer tutan naxışlardır. Təzhib sənətinin tarixi uyğur türklərini qədər uzansa da, bu gün əlimizdəki ən erkən örnəklər XII-XIII əsr Səlcuqlu əsərlərində rast gəlinir (xətt sənəti s.4). Təzhib sənəti İslam kitab sənətinin ayrılmaz hissəsi olaraq, xüsusilə Ərəb, Fars, Osmanlı və Mərkəzi Asiya məktəblərində yüksək inkişaf etmişdir. Səfəvilər dövründə (XVI–XVII əsrlər) və Osmanlı klas-

sik dövründə (XV–XVI əsrlər) təzhib sənəti zirvəyə çatmış, əlyazmaların zərli naxışları incəlik və simmetriya baxımından yüksək sənətkarlıq nümunəsi sayılmışdır.

Təzhib sözü ərəb sözü olub, mənası "zəhəbə" qızıllama, qızılla bəzəmə deməkdir. Bu sənət sahəsi xüsusilə İslam mədəniyyətinə məxsus əlyazmalarda geniş yayılmışdır. Əlyazmalarda təzhib mətnin müəyyən hissələrinin (sərlövhə, fəsil başlıqları, haşiyələr  və.s) nəbati naxışlarla bəzədilməsidir. Təzhibin əsas məqsədi əlyazmanı gözəlləşdirmək, onun estetik və mənəvi gözəlliyini artırmaqdır. Təzhibdə qızıl boyadan, bitki mənşəli təbii boyalardan istifadə olunurdu. Kompozisiya olaraq təzhibdə nəbati, rumi, bulud motivləri, simmetrik və həndəsi quruluşlar, medalyon (şəmsə) bəzəmə elementləri mövcud olmuşdur. Təzhib sənəti ilə məşğul olanlara müzəhhib adı verilir.

Azərbaycan əlyazmaları da zəngin təzhib nümunələri ilə seçilir. Xüsusilə XVI-XVIII əsr əlyazmalarında təzhib sənəti yüksək səviyyədədir. Bu əlyazmalarda rumi və bitki motivləri üstünlük təşkil edir, baş səhifə və kolofonlarda zərli bəzəklərə rast gəlinir. Bakı, Şamaxı, Şəki, Təbriz və Naxçıvan məktəblərinin bu sahədə özünəməxsus üslubları olmuşdur.

Əlyazmalarda təzhib yalnız bir bəzək elementi deyil, həm də kitab sənətinin mədəni, dini və estetik qatlarını birləşdirən mühüm vasitədir. Bu sənət vasitəsilə əlyazmalar həm gözəllik, həm də rəmzi məna baxımından zənginləşir və milli-mədəni kimliyin daşıyıcısına çevrilir.

Miniatür. Əlyazmalarda miniatür sənəti - mətnlə birlikdə təqdim olunan, hadisə və obrazları vizual şəkildə təsvir edən rəsm və ya illüstrasiya sənətidir. Bu sənət, əlyazmanın məzmununu tamamlayan, oxucunun təxəyyülünü zənginləşdirən və kitabın estetik dəyərini artıran vacib komponentlərdən biri hesab olunur.

Miniatür sözü latınca minium - qırmızı qurğuşun boyası sözündən meydana gəlmişdir. İlkin olaraq əlyazmaların baş hərflərinin və kənarlarının qırmızı boyayla işlənməsini ifadə edirdi. Sonralar isə bu anlayış genişləndi və minor (kiçik) sözünün təsirində qalaraq əlyazma kitablarında kiçik ölçülü, incə işlənmiş rəngli rəsmləri əhatə etməyə başladı. Miniatür sənəti ilə məşğul olanlar müsəvvir və ya nəqqaş adlandırılır.

Azərbaycan miniatür məktəbi əsasən Təbriz miniatür məktəbi ilə bağlıdır və XIV-XVI əsrlərdə özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır. Nizami Gəncəvinin "Xəmsə"sinin müxtəlif nüsxələrindəki miniatürlər bu məktəbin parlaq nümunələrindəndir. Əsərlərdə həm romantik səhnələr, həm də döyüşlər, saray və xalq həyatı ustalıqla təsvir olunmuşdur. Səfəvi dövründə (xüsusilə Şah Təhmasib dövründə) Təbriz miniatür məktəbi zirvəyə çatmış və Behzad kimi sənətkarların təsiri altında yeni üslublar formalaşmışdır.

Əlyazmalardakı miniatürlər yalnız təsviri sənətin bir forması deyil, həm də dövrünün vizual ensiklopediyasıdır. Onlar tədqiqatçılar üçün mətnlə yanaşı dövrün mədəniyyəti, tarixi, dini-fəlsəfi baxışları haqqında qiymətli məlumat mənbəyidir. Miniatür sənətinin öyrənilməsi əlyazma mədəniyyətinin çoxşaxəli və zəngin təbiətini dərk etməyə imkan verir.

Əlyazma kitabçılığı uzun əsrlər boyu elm, ədəbiyyat, din və s. biliklərin ötürülməsində mühüm vasitə olsa da XVII əsrdə Avropada yaranan litoqrafiya texnologiyası bu ənənəni yeni mərhələyə çıxarmışdır. Litoqrafiya - yəni daşbasma - ilk baxışda əlyazmanı əvəz etmək gücünə malik olsa da, əslində uzun müddət bu iki forma paralel şəkildə mövcud olmuşdur.

Litoqrafiya texnologiyası 1796-cı ildə alman ixtiraçısı Alois Senefelder tərəfindən yaradılmışdır. Bu texnologiya yağlı mürəkkəbin daş üzərində saxlanması prinsipinə əsaslanırdı. Orta və Şərqi Avropa ölkələrində sürətlə yayılan daşbasma üsulu zamanla Rusiya və Osmanlı imperi-

yası vasitəsilə Qafqaza, o cümlədən Azərbaycan ərazisinə daxil olmuşdur. Litoqrafiya burada daşbasma və kazan çapı adları ilə tanınırdı.

Azərbaycan ərazisində daşbasma çap üsulu XIX əsrin əvvəllərindən etibarən tətbiq olunmağa başlamışdır. Bu dövrdən etibarən dini kitablar, maarifçi risalələr, didaktik mətnlər və ədəbi əsərlər bu üsulla nəşr olunurdu. Xüsusilə XIX əsrin ikinci yarısında Tiflis, Şamaxı, Şuşa, Bakı və Gəncə kimi şəhərlərdə litoqrafiya üsulu ilə çap olunan kitablar yayılmağa başladı. Hazırda bu dövrə aid çoxsaylı daşbasma kitab nümunələri AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında saxlanılır.

**Əlyazmaların bərpası və konservasiyası: Tarixi irsin qorunmasında elmi və texnoloji yanaşmalar.** Əlyazmaların qorunması təkcə keçmişin mədəniyyətini gələcək nəsillərə ötürmək deyil, eyni zamanda elmi-tədqiqat baxımından da böyük əhəmiyyət kəsb edir. Zaman keçdikcə əlyazmalar müxtəlif xarici və daxili təsirlər nəticəsində fiziki, kimyəvi və bioloji baxımdan zədələnir. Bu səbəbdən onların mühafizəsi məqsədilə iki əsas istiqamət müəyyən edilir: bərpa (restavrasiya) və konservasiya (qoruma). Bu fəaliyyətlər müasir texnologiyaların tətbiqi və beynəlxalq elmi-praktik yanaşmalar əsasında həyata keçirilməlidir.

Əlyazmaların uzunömürlü olmaması bir sıra zədələyici faktorlarla bağlıdır. Fiziki zədələnmələrə kağızın yırtılması, qat izləri, bükülmə və cildin dağılması daxildir. Kimyəvi zədələr isə əsasən kağızın turşulaşması, mürəkkəbin dağılması və oksidləşmə ilə bağlıdır. Bioloji təhlükələr arasında kif, göbələk, bakteriyalar və həşəratlar - məsələn, kitab qurdu və gümüşböcək kimi canlılar xüsusi risk yaradır. Ətraf mühitin təsiri də önəmlidir: yüksək rütubət, temperaturun dəyişkənliyi və günəş işığının, xüsusilə ultrabənövşəyi (UV) şüaların əlyazmalar üzərində dağıdıcı rolu məlumdur. Bundan əlavə, insan faktoru, yəni qeyri-peşəkar istifadə, düzgün olmayan saxlanma və daşınma da əlyazmaların zədələnməsinə səbəb olur.

Əlyazmaların bərpası onların ilkin formalarının mümkün qədər qorunması və funksional vəziyyətə qaytarılması məqsədilə həyata keçirilən mütəxəssis müdaxiləsidir. Bu proses bir neçə mərhələdən ibarətdir. İlk mərhələdə əlyazmanın diaqnostikası və sənədləşdirilməsi aparılır - zədələrin xəritəsi çıxarılır, mikrobioloji testlər və kağızın tərkib analizləri yerinə yetirilir. Daha sonra təmizləmə mərhələsinə keçilir: mexaniki təmizləmə fırça, spatula və aspiratorlarla aparılır, kimyəvi təmizləmə zamanı isə ləkələr çıxarılır, kağızın turşuluğu neytrallaşdırılır (deasidifikasiya edilir). Struktur bərpa zamanı zədələnmiş hissələr restavrasiya kağızı və metil sellüloza, nişasta əsaslı yapışqanlarla tamamlanır. Əlyazma nəmləndirmə kamerasında yumşaldılır və xüsusi preslərdə düzləndirilir. Əgər əlyazmanın cildi zədəlidirsə, o zaman orijinal struktur və materiallara uyğun yeni cild hazırlanır və bu zaman orijinallığın qorunmasına xüsusi diqqət yetirilir.

Konservasiya tədbirləri isə bərpadan fərqli olaraq əlyazmaların uzun müddət ərzində qorunmasını təmin etməyə yönəlmiş qabaqlayıcı tədbirlər sistemidir. Bu tədbirlərə ətraf mühitin parametrlərinin sabit saxlanılması - temperaturun 18-20 °C, nisbi rütubətin 45-55 % həddində tənzimlənməsi daxildir. İşıq şüalarının - xüsusən də ultrabənövşəyi işığın - əlyazmalara təsiri azaldılmalıdır, bunun üçün UV-filtrlərdən və zəif süni işıqlandırmadan istifadə olunur. Əlyazmalar yalnız turşusuz (acid-free), pH balanslı arxiv qutularında və qovluqlarda saxlanmalıdır. Plastik materiallardan istifadə edilməməlidir. Eyni zamanda zərərvericilərə qarşı mübarizə məqsədilə əlyazmalar mütəmadi yoxlanmalı və təhlükə müşahidə olunarsa, həmin əlyazmalar müvafiq şəkildə təcrid edilməlidir. Konservasiyanın mühüm tərkib hissələrindən biri də rəqəmsallaşdırmadır. Əlyazmaların tez-tez istifadə edilməsinin qarşısını almaq və onların mətnlərini qorumaq məqsədilə rəqəmsal surətlər hazırlanmalı və istifadəçilərə məhz bu format təqdim edilməlidir.

Müasir texnologiyalar əlyazmaların qorunmasında mühüm rol oynayır. İnfraqırmızı və ultrabənövşəyi görüntüləmə vasitəsilə silinmiş yazıların və kağız qatları arasındakı mətnlərin oxunması mümkündür. Rəqəmsal konservasiya metodları əlyazmaların yüksək keyfiyyətli skanlarını və hətta 3D modellərini təqdim etməyə imkan verir. Nanotexnologiyalar isə mürəkkəb və kağızın molekulyar səviyyədə sabitləşdirilməsində istifadə olunur. Bu sahədə beynəlxalq nümunə kimi Vatikan Kitabxanası, Britaniya Kitabxanası, Topkapı Sarayı Əlyazmalar Kitabxanası kimi nüfuzlu mərkəzlərin təcrübələri qeyd edilə bilər.

Nəticə etibarilə, əlyazmaların bərpası və konservasiyası sahəsi yalnız texniki bacarıqlar deyil, eyni zamanda etik məsuliyyət və mədəni irsə hörmət tələb edən multidissiplinar bir fəaliyyətdir. Bu fəaliyyət nəticəsində əlyazmanın yalnız fiziki davamlılığı təmin edilmir, həm də onun üzərində daşıdığı mədəni, elmi və tarixi dəyər gələcək nəsillərə ötürülür. Azərbaycanda bu sahənin inkişaf etdirilməsi üçün mütəxəssis hazırlığı, beynəlxalq təcrübənin mənimsənilməsi və müasir texnologiyaların tətbiqi vacibdir.

**Əlyazmaların rəqəmsallaşdırılması.** Əlyazmaların qorunması və gələcək nəsillərə ötürülməsi müasir dövrün əsas elmi və ictimai vəzifələrindən biri kimi qəbul olunur. Bu vəzifənin icrasında rəqəmsallaşdırma prosesi mühüm rol oynayır. Zamanla fiziki olaraq köhnələn, müxtəlif təbii və insan mənşəli amillərin təsirinə məruz qalan əlyazmaların qorunması üçün texnologiyaların tətbiqi qaçılmazdır. Rəqəmsallaşdırma bu baxımdan ən effektiv mühafizə üsullarından biri kimi ön plana çıxır.

Rəqəmsallaşdırma - əlyazma nümunələrinin yüksək keyfiyyətli rəqəmsal surətlərə çevrilməsi və bu surətlərin elektron mühitdə saxlanaraq istifadəçilərə təqdim olunması prosesidir. Bu proses nəticəsində əlyazmalar fiziki təmas olmadan tədqiq edilə bilir, elmi dövriyyəyə daxil edilir və geniş ictimaiyyət üçün əlçatan olur. Rəqəmsallaşdırılmış əlyazmalar üzərində filoloji və tarixi araşdırmalar aparmaqla yanaşı, onların mətni avtomatik transkripsiya alətləri ilə oxuna, strukturlaşdırıla və elmi bazalarda axtarışa uyğunlaşdırıla bilər. Xüsusilə nadir, zəif qorunan və ya məhdud sayda olan əlyazma nümunələri bu yolla həm tədqiqat üçün əlçatan olur, həm də qorunur.

Əlyazmaların rəqəmsallaşdırılması tədqiqatçılara yeni texnoloji imkanlar yaradır. Süni intellekt əsaslı sistemlər, optik simvol tanınması (OCR), avtomatik mətn indeksləşdirmə və semantik analiz vasitələri sayəsində bu sənədlər daha geniş miqyasda və daha dərin səviyyədə təhlil oluna bilir. Bu isə klassik tədqiqat metodlarını tamamlayaraq, elmi nəticələrin dəqiqliyini və sürətini artırır. Eyni zamanda rəqəmsallaşdırılmış əlyazmalar beynəlxalq elmi mühitdə əməkdaşlıq və paylaşım üçün əlverişli şərait yaradır.

Dünya üzrə bir çox kitabxana, arxiv və tədqiqat mərkəzləri əlyazmaların rəqəmsallaşdırılması sahəsində layihələr həyata keçirir. Bu layihələr həm irsin qorunmasını, həm də elmi ictimaiyyət və maraqlı oxucular üçün əlçatan olmasını hədəfləyir. Azərbaycanda "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən yaradılan www.elyazma.az elektron platforması bu istiqamətdə mühüm təşəbbüsdür. Sayt vasitəsilə əlyazmaların rəqəmsal nüsxələri və onların təsviri məlumatları geniş auditoriyaya təqdim olunur (elyazma.az). Türkiyədə isə www.yazmalar.gov.tr saytı vasitəsilə minlərlə əlyazma ictimai istifadəyə verilir və ölkənin əlyazma irsi sistemli şəkildə elektron bazaya inteqrasiya olunur.

Əlyazmaların rəqəmsallaşdırılması yalnız texniki tədbir deyil, həm də elmi, mədəni və humanitar baxımdan strateji əhəmiyyətə malik bir prosesdir. Bu proses, mədəni yaddaşın qorunması,

elmi araşdırmaların genişlənməsi və əlyazma irsinin qlobal miqyasda dövriyyəyə daxil olması üçün mühüm vasitədir. Əlyazmaların rəqəmsallaşdırılması həm də onların gələcək nəsillər üçün dayanıqlı və təhlükəsiz şəkildə saxlanmasını təmin edən müasir mədəniyyət siyasətinin ayrılmaz hissəsidir.

**Ədəbiyyat:**


Azərbaycan Respublikası. (2012, 21 dekabr). Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu (№ 504-IVQ). Əldə edilib: 08.08.2025. https://e-qanun.az/framework/25303

Nazirlər Kabineti. (2014, 20 may). Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası (№ 165). Əldə edilib: 08.08.2025. https://frameworks.e-qanun.az/30/c_f_30401.html

Bern Convention for the Protection of Literary and Artistic Works. (1886, revised 1971). World Intellectual Property Organization. Əldə edilib: 08.08.2025. https://www.wipo.int/treaties/en/ip/berne/

Birol, İ. A. (2013). Türk tezyini sanatlarında desen tasarımı, çizim tekniği ve çeşitleri. İstanbul: Kubbealtı.

Halilli, F., & Halilli, Ş. (2023). Dünya Belleği - Azerbaycan'da el yazmaları koleksiyonlarının dijital sunumu. 3. Uluslararası Balkanlar, Anadolu, Kafkasya ve Türkistan Coğrafyası Sanat, Kültür, Tarih ve Folklor Kongresi / Sanat Etkinlikleri, 24-26 Ekim (Editör: A. Aytaç), 111-115. Aydın, Türkiye.

International Council on Archives. (2000). ISAD(G): General International Standard Archival Description, Second Edition. Əldə edilib: 08.08.2025. https://www.ica.org/resource/isdf-international-standard-for-describing-functions/

International Council on Archives. (2007). ISDF: International Standard for Describing Functions. Əldə edilib: 08.08.2025. https://www.ica.org/en/isdf-international-standard-describing-functions

Khalilli, Sh. (2018). Manuscript pattern: Tezhib (illumination). In A. Macchia, N. Masini, M. F. La Russa, & F. Prestileo (Eds.), Dialogues in cultural heritage: Books of abstracts of the 6th YOCOCU Conference (pp. 281–282). YOCOCU, CNR – IBAM.

Казиев, А. (1966). Художественно-технические материалы и терминология средневековой книжной живописи, каллиграфии и переплетного искусства. Баку: Элм.

Manuscript.az. Azərbaycan əlyazmalarının tarixi. Əldə edilib: 07.08.2025. https://www.manuscript.az/index.php?do=static&page=tarix

Məmmədbağıroğlu, Ə. (2018). XVII əsr Azərbaycan əlyazma kitabı (Paleoqrafiya və mətnşünaslıq məsələləri). Bakı: Elm və Təhsil.

Özkçeşci, İ., & Özkçeçeci, Ş. B. (2014). Türk sanatında tezhip. İstanbul: Yazıgen.

Qasımova, A. (2022). Xəttatlıq sənəti. Kamilinfo. Əldə edilib: 07.08.2025. https://kamilinfo.net/aida-qasimova-x%C9%99ttatliq-s%C9%99n%C9%99ti/

Rıhtım, M. (2003). Klassik türk sənəti, təzhib və xətt (32 s.). Bakı: Qismət.

UNESCO. (1970). Convention on the Means of Prohibiting and Preventing the Illicit Import, Export and Transfer of Ownership of Cultural Property. UNESCO. Retrieved August 8, 2025.

UNESCO. (2003, October 17). Convention for the Safeguarding of the Intangible Cultural Heritage. UNESCO. Retrieved August 8, 2025.

UNESCO. (2023). "Flower Book" of Khurshidbanu Natavan – album of illustrated verses (Registration Year: 2023; Submission Year: 2020). https://www.unesco.org/en/memory-world/flower-book-khurshidbanu-natavan-album-illustrated-verses

UNESCO. (n.d.). 1954 Convention for the Protection of Cultural Property in the Event of Armed Conflict. UNESCO. Retrieved August 8, 2025.

UNESCO. (n.d.). Legal texts on the 1954 Convention – Convention, Protocols, Ratifications, etc.. UNESCO. Retrieved August 8, 2025.

World Intellectual Property Organization. (n.d.). WIPO and Traditional Knowledge. https://www.wipo.int/tk/en/

Xəlilli, F., & Xəlilli, Ş. (2023b). Dünya yaddaşı - əlyazma kolleksiyalarının virtual təqdimatının təşkili və kataloqların hazırlanması. Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində Beynəlxalq Konfransının Materialları (2023, 24 Oktyabr), 74-79. Bakı, Azərbaycan. https://doi.org/10.59849/mbcatr.2023.74

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Şəhla Xəlilli
İstinad: Xəlilli, Ş. (2025). Dünya yaddaşı: Əlyazma irsi. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 142-153). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1142

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ
BAKI - 2025